"AZƏRSU" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

"Su həyatdır, təmiz su sağlam həyatdır"
*İlham Əliyev*

# BÜLLETEN

№ 2 (006) • fevral 2013-cü il | www.azersu.az | Qaynar xətt - 955

# Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı uğurla icra edilir




## Prezident İlham Əliyev: "Həm 2004-cü ildə, həm 2009-cu ildə qəbul edilmiş Dövlət Proqramlarının icrası ölkəmizin inkişafı üçün çox böyük rol oynamışdır"

Fevralın 12-də Prezident Ilham Əliyevin sədrliyi ilə «Azərbay¬can Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfrans keçirilmişdir. Dövlət proqramının icrasının uğurla həyata keçirildiyini dövlət başçısı iqtisadiyyatın hərtərəfli inkişafının təmin edilməsi, sosial proqramların, infrastruktur layihələrinin həyata keçirilməsi üzrə konkret tapşırıqlar vermişdir.

Ətraflı: səh. 2-3

# Xocalı faciəsinin 21-ci ildönümü ilə bağlı anım mərasimi keçirilmişdir

"Azərsu" Açıq Səhmdar Cəmiyyətində Xocalı faciəsinin 21-ci ildönümü ilə bağlı anım mərasimi keçirilmişdir. Mərasimdə Xocalı faciənin bəşəriyyət tarixinə ən dəhşətli kütləvi terror hadisələrindən biri kimi düşdüyü qeyd edilmiş, soyqırım qurbanlarının fədakarlığının gələcək nəsillər üçün qəhrəmanlıq nümunəsi olduğunu bildirmişdir.

Ətraflı: səh. 5

# "Azərsu" ASC-nin 2012-ci ildəki fəaliyyəti qənaətbəxş qiymətləndirilmişdir

Fevralın 15-də "Azərsu" Açıq Səhmdar Cəmiyyətində su təchizatı və kanalizasiya sektorunda 2012-ci ilin yekunları və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilmişdir. Müşavirədə su təchizatı və kanalizasiya sektorunun son 2012-ci ildə görülmüş işlər müzakirə olunmuşdur.

Ətraflı: səh. 6-7

# Səudiyyə İnkişaf Fondu su təchizatı və kanalizasiya layihəsinə güzəştli kredit ayıracaq

Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında "Xırdalan şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi üzrə Kredit Sazişi" layihəsi üzrə danışıqlara dair Protokol imzalanmışdır. Kredit sazişinə əsasən bu layihənin maliyyələşdirilməsi üçün Səudiyyə İnkişaf Fondu Azərbaycan hökumətinə güzəştli şərtlərlə 35 mln dollar kredit ayıracaq.

Ətraflı: səh. 6

# Sabirabad və Saatlı şəhərlərinə yeni magistral su xətti çəkiləcək

Sabirabad və Saatlı rayonlarının su təchizatının yaxşılaşdırılması məqsədi ilə Kür Sutəmizləyici Qurğular Kompleksindən magistral su xətti çəkiləcək. Magistral xəttinin tikinti üzrə tender elan etmişdir. Azərbaycan hökumətinin iştirak payı və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının krediti hesabına maliyyələşdirilən layihə çərçivəsində tikiləcək magistral su xətti Saatlı və Sabirabad şəhərlərində və ətraf kəndlərdə istehlakçıların içməli su təchizatını yaxşılaşdıracaq.

Ətraflı: səh. 4

# Regionların sosial-iqtisadi inkişafına

## Prezident İlham Əliyev: “Həm 2004-cü ildə, həm 2009-cu ildə qəbul edilmiş Dövlət Proqramlarının icrası ölkəmizin inkişafı üçün çox böyük rol oynamışdır”




***Fevralın 12-də Bakı Biznes Mərkəzində Prezident İlham Əliyevin sədrliyi ilə «Azərbay¬can Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfrans keçirilmişdir. Dövlət başçısı Mərkəzdə 2003-2012-ci illərdə respublikamızın sosial-iqtisadi inkişafı istiqamətində görülmüş işləri əks etdirən sərgi ilə tanış olmuşdur.***

Konfransda geniş nitq söyləyən Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafına xidmət edən dövlət proqramlarının 9 ildir ki, uğurla icra edildiyini, nəticədə iqtisadiyyatın bütün sahələrində dinamik inkişafın əldə olunduğunu bildirmişdir. Dövlətimizin başçısı həmin proqramların uğurlu icrası nəticəsində ötən illərdə iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı sahəsində bir sıra mühüm nəticələrin qazanıldığını diqqətə çatdırmışdır: “Sahibkarlığın inkişafı, dövlət dəstəyinin gücləndirilməsi və bütün bu məsələlərin bir-biri ilə əlaqəli şəkildə həll edilməsi Proqramın əsas mahiyyətini təşkil edirdi. Yerli istehsalın artırılması, idxaldan asılılığın azaldılması, iş yerlərinin yaradılması və beləliklə, yoxsulluğun, işsizliyin aradan qaldırılması məsələləri də böyük əhəmiyyət kəsb edirdi. Yəni regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı, əslində, ölkəmizin uğurlu, dayanıqlı inkişafı, iqtisadiyyatımızın şaxələndirilməsi üçün ən vacib və ən əsas iqtisadi alətə çevrilmişdir”.

Proqramın icrası nəticəsində ötən illərdə işsizliyin aradan qaldırılması sahəsində mühüm nəticələrin qazanıldığını deyən Prezident İlham Əliyev qarşıda duran vəzifələrdən də söz açmışdır. Ölkə iqtisadiyyatının son illərdə kifayət qədər gücləndiyini diqqətə çatdıran dövlətimizin başçısı Azərbaycanın böyük layihələri daxili imkanları hesabına reallaşdırmaq imkanında olduğunu qeyd etmişdir: “Əgər biz əvvəlki dövrdə layihələrin icrası üçün daha çox xarici maliyyə mənbələrindən asılı idiksə, bu gün artıq belə deyildir, Azərbaycan özü kredit verən ölkəyə çevrilibdir. Hətta Azərbaycan dövləti Beynəlxalq Maliyyə Korporasiyasına da - bu qurum Dünya Bankının tərkib hissəsidir, - kredit ayırmışdır. Yəni, şübhəsiz, bu illər ərzində ölkəmiz hər cəhətdən uğurla irəliyə getmişdir. Beləliklə, bu il Proqramı uğurla başa çatdırmaq üçün mən heç bir əngəl, heç bir problem görmürəm. Sadəcə olaraq, yerli icra orqanları, yerli sahibkarlar və mərkəzi icra orqanları həmişə olduğu kimi, əlaqəli şəkildə işləməli və verilən bütün tapşırıqları vicdanla, şərəflə yerinə yetirməlidirlər”.

Ölkə iqtisadiyyatının neft amilindən asılılığının azaldılması baxımından mühüm nəticələrin əldə olunduğunu deyən Prezident İlham Əliyev 2012-ci ildə qeyri-neft sektorunun 10%-lik artımını da mühüm göstərici kimi dəyərləndirmişdir. Dövlətimizin başçısı ötən 9 ildə ölkə iqtisadiyyatının və sənaye istehsalının üç dəfədən çox artmasını mühüm göstərici kimi dəyərləndirmişdir: “Hesab edirəm ki, bu, dünya miqyasında analoqu olmayan göstəricidir. Sənaye istehsalı təxminən üç dəfə artmışdır, ölkə iqtisadiyyatına təxminən 130 milyard dollar sərmayə qoyulmuşdur və keçən il sərmayə qoyuluşu rekord həddə çatmışdır - 22 milyard dollardan çox. Onlardan 13 milyardı yerli investisiyalar olmuşdur”.

Beynəlxalq maliyyə qurumlarının Azərbaycandakı inkişafı yüksək qiymətləndirdiyini deyən Prezident İlham Əliyev respublikada sosial məsələlərin həlli istiqamətində mühüm göstəricilərin əldə olunduğunu bildirmişdir: “Bizim iqtisadi sahədəki islahatlar, eyni zamanda, güclü sosial siyasətlə də tamamlanır. Əgər yenə də son doqquz ilin statistikasına nəzər salsaq, gö-

# dair Dövlət Proqramı uğurla içra edilir

rərik ki, 2004-cü ildə Azərbaycanda orta əməkhaqqı təxminən 100 dollar səviyyəsində idi, bu gün 500 dollar səviyyəsindədir. Orta pensiya 20 dollar səviyyəsində idi, bu gün 200 dollar səviyyəsindədir. Əlbəttə, bu rəqəmlər də bizi qane etmir və mən hesab edirəm ki, orta pensiyanın, orta əməkhaqqının səviyyəsi artmalıdır və artacaqdır. Dövlət müəssisələrində çalışanların əməkhaqları, pensiyaları artırılacaq, eyni zamanda sahibkarlığın inkişafı üçün yaradılan şərait nəticəsində özəl sektorda çalışanlar da öz maliyyə vəziyyətini yaxşılaşdıracaqlar. Ancaq yenə də deyirəm, bu böyük fərq onu göstərir ki, biz sosial məsələlərin həllində də böyük nailiyyətlərə çata bilmişik”.



Regionlarda həyata keçirilən infrastruktur layihələrinə toxunan dövlət başçısı bu sahədə su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələrinin xüsusi yer tutduğunu qeyd etmişdir: **“İnfrastruktur layihələri arasında içməli su və kanalizasiya layihələrinin icrası xüsusi yer tutur. Keçən il Dövlət İnvestisiya Proqramı çərçivəsində bu məqsədlərə böyük həcmdə vəsait qoyulmuşdur. Bu il də təxminən 800 milyon manata yaxın, bəlkə ondan da çox vəsait nəzərdə tutulur. Yenə də biz məqsədi maksimum şəkildə götürürük ki, bütün yaşayış məntəqələrində - Bakıda, bütün şəhərlərdə və kəndlərdə dayanıqlı, təmiz, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su layihələri icra edilsin.**

**Bu işlər bütün bölgələrdə geniş vüsət almışdır. Bütün dövrlərdə qarşımızda duran bu böyük problem əminəm ki, yaxın illərdə öz həllini tapacaqdır. Onu da qeyd etmək istəyirəm ki, biz bu layihələri əhalinin artımını nəzərə almaqla elə qururuq ki, ən azı 2035-ci ilə qədər öz səmərəsini təmin etsin. Beləliklə, bu məsələ həll ediləndən sonra demək olar ki, bütün bölgələrdə kommunal və infrastruktur layihələri icra olunacaqdır”.**

Konfransda iqtisadi inkişaf naziri Şahin Mustafayev, bir sıra rayon icra hakimiyyətlərinin başçıları, sahibkarlar regionlarda dövlət proqramları çərçivəsində əldə olunan nəticələrdən söz açmışlar.



Konfransda yekun nitqi söyləyən Prezident İlham Əliyev demişdir ki, bu ilin sonunadək ikinci Dövlət Proqramının icrası təmin ediləcəkdir: «Beləliklə, 10 ili əhatə edən bir dövr arxada qalacaqdır. Ancaq artıq bu gün də demək olar ki, həm 2004-cü ildə, həm 2009-cu ildə qəbul edilmiş iki Dövlət Proqramının icrası ölkəmizin inkişafı üçün çox böyük rol oynamışdır. Əgər bu proqramlar qəbul edilməsəydi, indi bölgələrdə gedən inkişafdan söhbət aparmaq belə yersiz olardı. Məhz 2004-cü ildə qəbul edilmiş bu qərar ölkəmizin hərtərəfli, dayanıqlı və şaxələndirilmiş şəkildə inkişafını təmin etmişdir».

Ölkə Prezidenti konfransda Dövlət Proqramı çərçivəsində qazanılmış uğurları geniş təhlil etməklə yanaşı, qarşıda duran vəzifələrə də toxunmuş, aidiyyəti dövlət qurumlarına göstərişlərini vermişdir.

# Novxanıdan Sumqayıtadək yeni kanalizasiya kollektoru çəkilir

***"Azərsu" Açıq Səhmdar Cəmiyyəti kanalizasiya infrastrukturunun və ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində kompleks tədbirləri davam etdirir. Abşeron rayonunun Novxanı qəsəbəsindən Sumqayıt şəhərinə qədər olan ərazilərdə çirkab suların Xəzər dənizinə axıdılmasının qarşısını almaq üçün növbəti layihənin icrasına başlanmışdır.***

Qeyd edək ki, icrasına 2011-ci ilin ikinci yarısında başlanmış ilkin layihə çərçivəsində Novxanı qəsəbəsi ərazisində 1000 mm diametrli GRP (şüşəlifli) və polietilen borulardan ibarət 6 km uzunluğunda kanalizasiya kollektoru çəkilmişdir. Hazırda bu xəttin davamı olaraq Novxanı qəsəbəsindən Sumqayıt şəhərindəki çirkab sutəmizləyici qurğuya qədər 7175 metr uzunluğunda 1600 mm diametrli polietilen borularla yeni kollektor çəkilir. İnşasına cari ilin yanvar ayında başlanmış kollektorun 200 metrdən çox hissəsində işlər yekunlaşmışdır. Ümumilikdə tikinti işlərinin 2013-cü ilin may ayına qədər başa çatdırılması nəzərdə tutulur.

Kollektor istismara verildikdən sonra Novxanı qəsəbəsindən Sumqayıt şəhərinə qədər 12 nöqtədən dənizə axıdılan çirkab sular kollektora yönəldiləcək. Yeni kollektora toplanan tullantı suları elektrik enerjisi sərf edilmədən özüaxımlı rejimdə Sumqayıt çirkab su təmizləyici qurğular kompleksinə nəql olunacaq. Burada çirkab sular emal olunduqdan sonra Xəzər dənizinə axıdılacaq. Bununla da Novxanı qəsəbəsinin və bağ massivlərinin, eləcə də ərazidəki istirahət mərkəzlərinin tullantı sularının birbaşa dənizə axıdılmasının qarşısı tam alınacaq.





# Səudiyyə İnkişaf Fondu Xırdalan şəhərinin su təchizatı və kanalizasiya layihəsinə kredit ayıracaq

***"Xırdalan şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi üzrə Kredit Sazişi" layihəsinə dair Səudiyyə İnkişaf Fondu ilə danışıqlar aparılması məqsədi ilə 11-15 fevral 2013-cü il tarixlərində "Azərsu" ASC sədrinin xarici sərmayələr üzrə müavini İlqar Tağıyevin başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyad şəhərində işgüzar səfərdə olmuşdur.***

Azərbaycan Respublikası Nazirlər Kabineti, İqtisadi İnkişaf və Maliyyə nazirliklərinin də daxil olduğu nümayəndə heyəti səfər çərçivəsində Səudiyyə İnkişaf Fondunun Asiya regionu üzrə texniki direktoru Eng Mohammad Al-Alarifi və baş mühəndisi Mohammad Al-Draibi ilə görüşmüşdür. Keçirilən görüşlərdə layihənin maliyyələşmə məsələləri barədə danışıqlar aparılmış, Kredit Sazişi layihəsinə dair rəy və təkliflər müzakirə edilmişdir. Tərəflər arasında qarşılıqlı razılıq əldə edildikdən sonra Səudiyyə İnkişaf Fondu tərəfindən Kredit Sazişinin yekun variantı hazırlanmışdır. Danışıqların yekununda Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında "Xırdalan şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi üzrə Kredit Sazişi" layihəsi üzrə danışıqlara dair Protokol imzalanmışdır. Kredit sazişinə əsasən bu layihənin maliyyələşdirilməsi üçün Səudiyyə İnkişaf Fondu Azərbaycan hökumətinə güzəştli şərtlərlə 35 mln dollar kredit ayıracaq.

İcrasına cari ilin ikinci yarısında başlanacaq layihəyə əsasən Abşeron rayonu Xırdalan şəhərinin su təchizatı və kanalizasiya sistemləri yenidən qurulacaq. Xırdalan şəhərinə içməli su Ceyranbatan Sutəmizləyici Qurğular Kompleksindən veriləcək. Buradan götürülən su hər birinin tutumu 20 min kubmetr olan 3 yeni anbara – "+82 Masazır", "+120 Masazır" və "+118Abşeron" su anbarlarına ötürüləcək və anbarlardan magistral xətlər vasitəsilə şəhər şəbəkəsinə özüaxımlı rejimdə veriləcək.

Layihə çərçivəsində Xırdalan şəhərində ümumi uzunluğu 159 km olan su şəbəkəsi yaradılacaq. Şəhərin kanalizasiya şəbəkəsinin tikintisinə isə yeni kanalizasiya kollektoru istismara veriləndən sonra başlanacaq. Qeyd edək ki, hazırda Xırdalan şəhərində toplanan çirkab suları təmizlənmək üçün Hövsan Aerasiya Stansiyasına ötürülür. Gələcəkdə Xırdalan şəhərində toplanan çirkab suları hazırda Lökbatan qəsəbəsi yaxınlığında inşa edilən və sutkalıq məhsuldarlığı 200 min kubmetr olacaq çirkab sutəmizləyici qurğuya ötürüləcək. Çirkab suların bu qurğuya özüaxımlı rejimdə ötürülməsini təmin etmək üçün Xırdalan şəhərindən Xocasən qəsəbəsinədək 7 km uzunluğunda tunel tipli kollektor tikilməsinə başlanmışdır. Tikinti işlərinin 2014-cü ilin sonunda başa çatacağı nəzərdə tutulur. Laayihənin icrası tam başa çatdıqdan sonra Xırdalan şəhərində 100 mindən çox sakinin içməli su və kanalizasiya xidmətlərindən istifadəsi yaxşılaşacaq.



# Xocalı faciəsinin 21-ci ildönümü ilə bağlı anım mərasimi keçirilmişdir

**Fevralın 25-də "Azərsu" Açıq Səhmdar Cəmiyyətində Xocalı faciəsinin 21-ci ildönümü ilə bağlı anım mərasimi keçirilmişdir. Əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.**

Mərasimdə çıxış edən "Azərsu" ASC-nin sədrinin müavini Mirkamil Seyidov Azərbaycan xalqının tarixində ən qanlı səhifələrdən biri olan Xocalı faciəsinin bəşəriyyət tarixinə ən dəhşətli kütləvi terror hadisələrindən biri kimi düşdüyünü qeyd etmişdir. M. Seyidov faciənin tarixinə nəzər salaraq bildirmişdir ki, 21 il əvvəl, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə bütün beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan silahlı qüvvələri keçmiş Sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının iştirakı Xocalı şəhərinə hücum etmiş, bəşəriyyətin ən böyük faciələrindən birini- Xocalı faciəsinin törətmişdir. Bu hərbi təcavüz zamanı Xocalı şəhəri yerlə yeksan edilmiş, dinc sakinlərə amansızcasına divan tutulmuşdur. Hərbi təcavüz nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilmiş, cəsədləri üzərində təhqiredici hərəkətlərə yol verilmişdir: Həmin kütləvi qırğın həyata keçirilərkən 8 ailənin bütün üzvləri öldürülmüş, 25 uşaq hər iki valideynindən, 130 uşaq isə valideynlərinin birindən mərhum edilmiş, 487 dinc sakin ağır yaralanmış və 1275 nəfər girov götürülmüşdür. Girov götürülənlərdən 150 nəfərin taleyi hələ də məlum deyil.

Tarix elmlər namizədi, Bakı Dövlət Universitetinin dosenti Atamoğlan Məmmədli geniş çıxış edərək bildirmişdir ki, Xocalı faciəsi Azərbaycan xalqına qarşı misli görünməmiş kütləvi və amansız qırğın aktı, dövlət müstəqilliyimizə, ərazi bütövlüyümüzə qarşı yönəlmiş irimiqyaslı cinayət idi. O vaxtlar Zaqafqaziya hərbi əks-kəşfiyyat bölməsinin rəisi işləmiş Vladimir Sovolyov xatirələrində həmin hadisələr zamanı dinc sakinlərə qarşı xüsusi amansızlıq göstərildiyini, hətta qadınlara, uşaqlara və qocalara rəhm edilmədiyini etiraf edmişdir.



Tarixçi-alim qətliamın Sovet ordusunun 366-cı motoatıcı alayı ilə yanaşı, xaricdən cəlb olunmuş xüsusi təyinatlı terrorçu qruplaşmaların iştirakı ilə törədildiyini diqqətə çatdırmışdır.

Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika komitəsinin sədri Akif Məmmədov faciə ilə bağlı konkret faktlara toxunaraq soyqırım qurbanlarının fədakarlığının gələcək nəsillər üçün qəhrəmanlıq nümunəsi olduğunu bildirmişdir.

# “Azərsu” ASC-nin 2012-ci ildəki fəaliyyəti

## Qorxmaz Hüseynov: “Əsas məqsədimiz əhalinin daha böyük hissəsinə xidmət göstərmək, daha çox vətəndaşı keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etməkdir”



**Fevralın 15-də “Azərsu” Açıq Səhmdar Cəmiyyətində su təchizatı və kanalizasiya sektorunda 2012-ci ilin yekunları və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş geniş müşavirə keçirilmişdir.**

Müşavirəni giriş sözü ilə açan “Azərsu” ASC-nin sədri Q.Hüseynov bildirmişdir ki, müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının möhtərəm Prezident İlham Əliyev tərəfindən 2012-ci ildə həyata keçirilməsi nəticəsində Azərbaycan iqtisadiyyatı dinamik inkişaf etmiş, yeni infrastruktur layihələri həyata keçirilmiş, əhalinin sosial rifahı daha da yaxşılaşmışdır. Su təchizatı və kanalizasiya sektorunda görülən işlərə toxunan “Azərsu” ASC-nin sədri qeyd etmişdir ki, dövlət başçısının diqqət və qayğısı sayəsində su təchizatı və kanalizasiya sektoru son 2 ildə yeni inkişaf dövrünə qədəm qoymuşdur: **“Dövlət başçısının əhalinin 24 saat fasiləsiz və keyfiyyətli içməli su il təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq 2012-ci ildə bu sahədə genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. 23 şəhər və rayon mərkəzi, eləcə də 277 kənd və qəsəbə üzrə işlərə başlanmışdır. Şirvan-Muğan Qrup su kəmərinin təməlinin qoyulması, Külüllü-Zərdab magistral su xəttinin açılışı ilin mühüm hadisələri**



# qənaətbaxş qiymətləndirilmişdir



**kimi tarixə düşmüşdür".**

Daha sonra "Azərsu" ASC sədrinin birinci müavini Teyyub Cabbarov, sədrin istismar üzrə müavini Köçərli Həsənov, sədrin iqtisadi məsələlər üzrə müavini Mahir Məmmədov, "Birləşmiş Sukanal" MMC-nin sədri Etibar Məmmədov, "Bakı Sukanal" İdarəsinin rəisi Habil Quliyev, "Azərsu" ASC-nin İşlər İdarəsinin rəisi Möhsün Quliyev hesabat məruzəsi ilə çıxış edərək, müvafiq sahələr üzrə 2012-ci ildə görülmüş işlər və həyata keçirilmiş tədbirlər barədə ətraflı məlumat vermişlər.

Tədbirdə qeyd olunmuşdur ki, 2012-ci ildə 1400 km su, 630 km kanalizasiya xətləri çəkilmiş, 45 anbar və 5 ədəd nasos stansiyası tikilmiş, 35 ədəd artezian və subartezian quyuları qazılmışdır. Hesabat dövründə 20 minə qədəri smart-kart tipli olmaqla 64 min sayğac quraşdırılmışdır. 2012-ci ildə ölkə üzrə 370 min nəfər fasiləsiz içməli su ilə təmin olunmuş 400 mindən artıq vətəndaşın su təchizatı yaxşılaşmışdır.

"Azərsu" ASC-nin AzersuCİS layihəsinin Bentley Beynəlxalq Layihə Müsabiqəsində birinci yerə və Səhmdar Cəmiyyətin Böyük Britaniyanın Sertifikatlaşdırılmış Maliyyə Menecerləri İnstitutunun Beynəlxalq Maliyyə Hesabatları Standartlarına keçid istiqamətində ən yüksək mükafatına layiq görülməsi də ilin mühüm uğurlarından olduğu vurğulanmışdır.

2012-ci ildə Səhmdar Cəmiyyətdə maddi-texniki bazanın gücləndirilməsi, kadr hazırlığı, əməyin təhlükəsizliyi və sosial məsələlərə diqqət artırılmışdır.

"Azərsu" ASC-nin sədri iclasa yekun vuraraq 2013-cü ildə görüləcək işlər və qarşıda duran vəzifələr barədə tapşırıqlarını vermişdir. 2013-cü ildə Bakı şəhəri və ətraf qəsəbələrdə, eləcə də regionlarda su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində işlərin sürətləndiriləcəyini deyən Səhmdar Cəmiyyətin sədri layihələrin icrasına mütəmadi nəzarət edilməli olduğunu diqqətə çatdırmışdır. Q.Hüseynov "Azərsu" ASC-nin yeni texnologiyalardan istifadəni prioritet seçdiyini xatırladaraq kadr hazırlığı istiqamətində təxirəsalınmaz tədbirlərin görülməli olduğunu vurğulamışdır.

"Azərsu" ASC-nin sədri su itkilərinin azaldılması məqsədi ilə abunəçilərlə işin təkmilləşdirilməsi, içməli sudan-qeyri-qanuni istifadə hallarının azaldılması, texniki və istismar sahəsində tədbirlərin görülməsi üzrə ciddi tapşırıqlar vermişdir.

Q.Hüseynov abunəçilərdən nağd ödəniş qəbul edən, eləcə də içməli sudan və kanalizasiya xidmətlərindən qeyri-qanuni istifadə hallarına laqeyd yanaşan əməkdaşlara qarşı ciddi tədbirlər görüləcəyini bildirmişdir. "Azərsu" ASC-nin sədri istehlakçılara göstərilən xidmətin keyfiyyətinin artırılması, abunəçilərlə normal ünsiyyət və davranış qaydalarının təmin edilməli olduğunu qeyd etmişdir. Q.Hüseynov 2013-ci ildə genişmiqyaslı tədbirlərin həyata keçiriləcəyini, bu sahədə Səhmdar Cəmiyyətin hər bir əməkdaşının üzərinə böyük məsuliyyət düşdüyünü diqqətə çatdırmışdır: **"Bizim əsas məqsədimiz əhalinin daha böyük hissəsinə xidmət göstərmək, daha çox vətəndaşı keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etməkdir. Bu sahədə 2013-cü ildə daha çox işləməli olacağıq. Ümid edirəm ki, su təsərrüfatı işçiləri vəzifələrini şərəflə yerinə yetirərək möhtərəm Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə öz töhfələrini verəcəklər".**

# Əsas hədəf layihənin keyfiyyətlə və vaxtında icra edilməsidir

## Ramin Cəfərov: ““Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi” üzrə tikinti işlərinin 2015-ci ilin əvvəlinədək tam başa çatdırılması nəzərdə tutulur”



*“Azərsu” Açıq Səhmdar Cəmiyyəti su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə həyata keçirilən layihələrdə beynəlxalq maliyyə təşkilatları və xarici şirkətlərlə sıx əməkdaşlıq edir. Bu layihələrin həyata keçirilməsində Yaponiya hökuməti, xüsusilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi (YBƏA) yaxından iştirak edir. YBƏA ilə birgə reallaşdırılan “Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi” çərçivəsində Qusar, Xaçmaz, Xızı, Qobustan, Naftalan şəhərlərinin, eləcə də ətraf kəndlərin su təchizatı və kanalizasiya sistemləri yenidən qurulacaq. Layihənin icrası istiqamətində görülən işlər barədə sualları “Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi” üzrə idarəetmə qrupunun rəhbəri Ramin Cəfərov cavablandırır.*

***- Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə əməkdaşlığın tarixi barədə nə deyə bilərsiniz?***

- "Azərsu" ASC-nin Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə əməkdaşlığı Yaponiya və Azərbaycan hökumətləri arasında formalaşmış və getdikcə inkişaf edən iqtisadi-siyasi münasibətlərin təcəssümüdür. Bildiyiniz kimi, Yaponiya Hökuməti Azərbaycanda sosial və infrastruktur sahələrinin inkişafına yaxından maraq göstərir. Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə birgə həyata keçirilən “Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi”nin bu sahədə özünəməxsus yeri vardır.

Layihənin texniki-iqtisadi əsaslandırılması məqsədi ilə qrant ayrıldıqdan sonra 2007-ci ilin iyul-noyabr aylarında pilot layihələrin həyata keçirilməsinə başlanmışdır. Pilot layihə çərçivəsində çoxsaylı görüşlər keçirilmiş, layihənin həyata keçirildiyi ərazilərə birgə səfərlər təşkil olunmuş və hesabatlar hazırlanmışdır. Hazırlamış hesabatlar əsasında Azərbaycan Respublikası Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi arasında 29 may 2009-cu il tarixdə “Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi”nə dair Kredit Sazişi imzalanmışdır.

Qeyd edim ki, ilkin mərhələdə layihə 10 şəhəri (Şirvan, Salyan, Neftçala, Qusar, Xaçmaz, Xızı, Qobustan, Yevlax, Bərdə və Naftalan) əhatə edirdisə, sonrada Azərbaycan hökuməti ilə qarşılıqlı razılıq əsasında Şirvan, Salyan və Neftçala şəhərləri bu layihədən çıxarılmışdır.

***- Azərbaycan Hökumətinin Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə birgə həyata keçirdiyi “Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi”nin icra vəziyyəti necədir?***

- Layihə müxtəlif şəhərləri əhatə edən 10 paketə bölünmüşdür. Hazırda “Qusar, Xaçmaz və Xızı şəhərlərinin su təchizatı sistemlərinin bir hissəsinin yenidən qurulması” adlanan paket çərçivəsində qeyd olunan şəhərlərdə sugötürücü qurğular, magistral su kəmərləri və su anbarlarının tikintisi üzrə işlər davam etdirilir. Bu paket üzrə tikinti-quraşdırma işlərinin cari ilin mart ayına qədər tamamlanması gözlənilir. Bundan başqa, 2012-ci ilin dekabr ayının 24-də Naftalan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə podrat müqaviləsi imzalanmışdır. 2013-cü ilin aprel–may ayına qədər bütün digər paketlər üzrə satınalma prosedurlarının tamamlanacağı və podrat müqavilələrinin imzalanacağı gözlənilir.

***- Layihənin keyfiyyətli icrasını təmin etmək üçün hansı işlər görülür?***

- Podrat müqaviləsi imzalandıqdan sonra Layihənin icra olunması ilə əlaqədar bütün mərhələlərdə “Azərsu” ASC, Layihə İdarəetmə Qrupu və məsləhətçi şirkət birlikdə müqavilə şərtlərinin nəzərdə tutulan qaydada və keyfiyyətli icrasına ümumi nəzarəti həyata keçirir. Layihənin icrası mərhələsində yeni texnologiyaların tətbiq olunması prioritet kimi müəyyənləşdirilmişdir. Yüksək texnologiyaların tətbiq olunması fəaliyyətin səmərəliliyini təmin edir. Eyni zamanda podrat müqavilələri çərçivəsində yerli sukanal idarələri üçün müasir standartlara cavab verən maşın və mexanizmlərin alınması, işçilərin yüksək peşə qabiliyyətlərinə yiyələnməsi məqsədilə kadrların təlim və təcrübə kurslarına cəlb olunması nəzərdə tutulur.

***- Bu layihənin əhatə etdiyi şəhərlərdə su təchizatı və kanalizasiya layihələri üzrə işlərin nə vaxt yekunlaşacağı proqnozlaşdırılır?***

- Layihə üzrə işlərin ayrı-

əvvəli səhifə 8-də

ayrı paketlər üzrə həyata keçirilməsini və hər bir paketin iş həcmindən asılı olaraq icra müddətinin fərqli olmasını nəzərə alaraq, layihənin əhatə etdiyi şəhərlərdə su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin eyni vaxtda başlanması və tamamlanması gözlənilmir. Bununla belə, bütövlükdə layihə ilə əhatə olunan şəhərlərdə işlərin 2015-ci ilin əvvəlinədək tam başa çatdırılması proqnozlaşdırılır.

***- Bu layihədən nə qədər istehlakçının faydalanması nəzərdə tutulub?***

- Bütün şəhərlər üzrə layihələndirmə işləri aparılarkən Dövlət Statistika Komitəsinin əhalinin artımı ilə bağlı 2030-cu ilə olan proqnozu əsas götürülmüşdür. Layihə başa çatdıqdan sonra Bərdə, Xaçmaz, Yevlax, Naftalan, Xızı, Qusar və Qobustan şəhərləri üzrə 210 minə qədər sakin su təchizatı və kanalizasiya xidmətlərindən faydalanacaq.

***- "Azərsu" ASC-nin Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə əməkdaşlığın perspektivləri necə qiymətləndirilir?***

- "Azərsu" ASC ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi arasındakı əmakdaşlıq Azərbaycan Respublikası hökümətinin həyata keçirdiyi inkişafın uzunmüddətli və daimi strategiyası prinsiplərinə əsaslanır. "Azərsu" ASC və YBƏA arasında əməkdaşlığın nisbətən qısa tarixinə baxmayaraq artıq nəzərdə tutulan layihələr çərçivəsində mühüm addımlar atılmışdır. Layihələrin müvəffəqiyyətlə icrası "Azərsu" ASC və YBƏA arasındakı etimadı yüksəltməklə bərabər, gələcəkdə Azərbaycan ilə Yaponiya hökumətləri arasında əməkdaşlığın daha da genişlənməsinə öz töhfəsini verəcəkdir.



# Mingəçevir şəhərinin su təchizatı və kanalizasiya sistemləri yenidən qurulur

## Layihə başa çatdıqdan sonra 100 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsi yaxşılaşacaq

***"Azərsu" Açıq Səhmdar Cəmiyyəti istehlakçıların içməli su təchizatının yaxşılaşdırılması istiqamətində kompleks tədbirləri Bakı şəhəri ilə yanaşı regionlarda da davam etdirir. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq bölgələrdə su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində genişmiqyaslı işlər həyata keçirilir. Dövlət büdcəsi hesabına maliyyələşdirilən layihə çərçivəsində Mingəçevir şəhərində su təchizatı və kanalizasiya sistemləri yenidən qurulur.***

Layihəyə əsasən şəhərə içməli su Mingəçevir su anbarından veriləcək. Istehlakçıların dünya standartlarına uyğun keyfiyyətli içməli su ilə təmin edilməsi məqsədi ilə məhsuldarlığı sutkada 30 min kubmetr olacaq ultrasüzgəcli sutəmizləyici qurğu inşa olunacaq. Mingəçevir şəhərinə içməli suyun özüaxımlı rejimdə verilməsi üçün hər birinin tutumu 20 min kubmetr olan 2 ədəd su anbarı inşa ediləcək. Layihəyə əsasən, şəhərin su və kanalizasiya şəbəkələri tamamilə yenidən qurulur. Ümumi uzunluğu 250 km layihələndirilən şəhərdaxili paylayıcı su şəbəkəsinin 75 km-lik hissəsi inşa edilmişdir. Bununla paralel olaraq, ümumi uzunluğu 223 km kanalizasiya şəbəkəsinin 46 km-lik hissəsində işlər yekunlaşmışdır. Çirkab suların təmizlənməsi məqsədi ilə Mingəçevir şəhəri yaxınlığında sutkalıq məhsuldarlığı 25 min kubmetr olan çirkab sutəmizləyici qurğu inşa ediləcək.

Layihə üzrə işlərin 2013-cü ilin ikinci yarısında başa çatdırılması nəzərdə tutulur. Bununla da Mingəçevir şəhərində 100 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsi yaxşılaşacaq.

# İçməli sudan qeyri–qanuni istifadə faktı aşkarlanmışdır

***"Azərsu" Açıq Səhmdar Cəmiyyəti içməli suyun dəqiq uçotunun aparılması və sudan qeyri-qanuni istifadə hallarının aradan qaldırılması istiqamətində nəzarət tədbirlərini davam etdirir. Nəzarət tədbirlərinin gücləndirilməsi müsbət nəticələr versə də bəzi hallarda istehlakçılar içməli sudan sayğacdankənar və müqavilə bağlamadan istifadə edirlər.***





"Azərsu" ASC-nin Abonent işləri departamenti əməkdaşlarının həyata keçirdikləri nəzarət tədbirləri nəticəsində Bakı şəhəri Xətai rayonu Zığ şossesində yerləşən ALKO LTD-AZƏR SPİRT MMC şirkətinə məxsus alkoqollu içkilər istehsal edən müəssisədə içməli sudan qeyri-qanuni istifadə faktı aşkarlanmışdır. Müəssisənin su təchizatı sisteminə baxış keçirilərkən məlum olmuşdur ki, obyektə diametrli 150 mm olan borularla qeyri-qanuni su xətti çəkilmişdir. "Azərsu" ASC əməkdaşları qeyri-qanuni çəkilmiş su xəttini ləğv etmişdir. Aparılmış qiymətləndirmə nəticəsində içməli sudan qeyri-qanuni istifadə edilməsinə görə "Azərsu" ASC-yə dəymiş zərər 195436 manat 80 qəpik qiymətləndirilmişdir.

Həyata keçirilən nəzarət tədbirləri nəticəsində 2013-cü ilin əvvəlindən fevral ayının 20-dək Bakı şəhəri və ətraf qəsəbələrdə içməli su və kanalizasiya xidmətlərindən qanunsuz istifadə üzrə 178 fakt aşkarlanmış,aparılmış qiymətləndirmə nəticəsində 473 min manat dəymiş ziyan hesablanmışdır.

"Azərsu" ASC bir daha istehlakçıların diqqətinə çatdırır ki, içməli sudan qeyri-qanuni istifadə yolverilməzdir. Belə halların aşkarlanması üçün nəzarət tədbirləri mütəmadi həyata keçirilir və belə qanunsuz hərəkətlərə yol verən abunəçilərin içməli su təchizatı qeyd-şərtsiz dayandırılır və onlara qarşı qanunvericilikdə nəzərdə tutulmuş müvafiq tədbirlər görülür.

# Lənkəran şəhərində yeni su və kanalizasiya şəbəkələri qurulur

***"Azərsu" Açıq Səhmdar Cəmiyyəti "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq bölgələrdə su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində kompleks tədbirləri davam etdirir. Dövlət büdcəsi hesabına maliyyələşdirilən layihə çərçivəsində Lənkəran şəhərində su təchizatı və kanalizasiya sistemləri yenidən qurulur.***

"Lənkəran şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi" Lənkəran şəhərini, eləcə də şəhər mərkəzinə yaxın 12 kənd və qəsəbəni əhatə edir. Layihəyə əsasən şəhərə içməli su Xanbulançay dəryaçasından veriləcək. İstehlakçıları dünya standartlarına uyğun keyfiyyətli içməli su ilə təmin etmək məqsədi ilə burada yeni texnologiyaya əsaslanan və məhsuldarlığı sutkada 30 min kubmetr olan ultrasüzgəcli sutəmizləyici qurğu inşa olunacaq. Lənkəran şəhərin dayanıqlı su təchizatının aparılması üçün 15 min kubmetr tutumu olan su anbarı tikiləcək. Hazırda sutəmizləyici qurğular və su anbarları kompleksində tikintiyə hazırlıq işləri həyata keçirilir. Su mənbəyindən şəhər istiqamətinə 710 mm diametrli borularla 16,5 km olan magistral su xətti çəkilmişdir.

Layihəyə əsasən Lənkəran şəhərində və ətraf kəndlərdə 200 km uzunluğunda layihələndirilən şəhərdaxili paylayıcı su şəbəkəsinin təxminən 25 km-lik hissəsi çəkilmişdir. Ümumi uzunluğu 180 km kanalizasiya şəbəkəsinin isə 20 km-lik hissəsində işlər başa çatdırılmışdır. Gələcəkdə Lənkəran şəhərində yaranacaq çirkab sular məhsuldarlığı sutkada 25 min kubmetr olacaq çirkab sutəmizləyici qurğuya ötürüləcək. Tullantı sularının normal axınını təmin etmək üçün şəhərdə 8 ədəd kanalizasiya-nasos stansiyası inşası ediləcək.

Qeyd edək ki, layihə şəhərdə əhali artımının 2035-ci ilə qədər inkişafı nəzərə alınmaqla 75 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanmışdır.

# Sabirabad və Saatlı şəhərlərinə yeni magistral su xətti çəkiləcək

*"Azərsu" Açıq Səhmdar Cəmiyyəti "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri Layihəsi" çərçivəsində Hacıqabul rayonu Talış kəndi ərazisində yerləşən Kür Sutəmizləyici Qurğular Kompleksindən Sabirabad və Saatlı rayonları üçün magistral su xəttinin tikintisi üzrə tender elan etmişdir. Azərbaycan hökumətinin iştirak payı və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının krediti hesabına maliyyələşdirilən layihə çərçivəsində tikiləcək magistral su xətti Saatlı və Sabirabad şəhərlərində və ətraf kəndlərdə istehlakçıların içməli su təchizatını yaxşılaşdıracaq.*

Tenderdə iştirak etmək istəyənlər təkliflərini yazılı formada (ingilis dilində) təqdim etməli, müsabiqədə iştirak üçün 160 manat və ya 200 ABŞ dolları ödəməlidir. Təkliflər 550 min ABŞ dolları məbləğində Tender Zəmanəti ilə birlikdə 19 mart 2013-ci il tarixədək təqdim olunmalıdır.

Qeyd edək ki, "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri Layihəsi" çərçivəsində Saatlı və Sabirabad şəhərlərində su təchizatı və kanalizasiya infrastrukturları da yaxşılaşdırılacaq. 2012-ci ildə hər 2 şəhərin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə beynəlxalq tenderlər keçirilmiş və layihə üzrə işlərin təməli qoyulmuşdur. Layihəyə uyğun olaraq Saatlı və Sabirabad şəhərlərində paylayıcı su xətlərinin və kanalizasiya şəbəkələrinin yenidən qurulması, su anbarları tikintisi, nasos stansiyaları və yanğın hidrantlarının quraşdırılması nəzərdə tutulur.



# Tikinti-quraşdırma layihələri üzrə tender elan edilmişdir

**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti Bakı şəhəri, ətraf qəsəbələrin və regionların su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması və tikintisi məqsədilə 2013-cü ildə tikinti-quraşdırma işlərinin görülməsi haqqında tender elan etmişdir. 5 lot üzrə elan edilən tender aşağıdakı layihələrin həyata keçirilməsi ilə bağlıdır:**

*- Müşfiqabad çirkab su hövzəsi, göl səviyyəsini sabitləşdirən nasos stansiyasının və magistral çirkab su xəttinin tikintisi;*

*-Bakı şəhəri Heydər Əliyev prospektində tikilən yeni inzibati binaların xarici su və kanalizasiya xətlərinin çəkilişi;*

*- Şəki rayonunda "A 1104" istirahət mərkəzinin su və kanalizasiya xətlərinin çəkilişi;*

*- Şüvəlan çirkab sutəmizləyici qurğularının və əhatə etdiyi hövzənin kanalizasiya sisteminin yenidən qurulması və inşası;*

*- Pirşağı çirkab su təmizləyici qurğularının və əhatə etdiyi hövzənin kanalizasiya sisteminin inşası.*

Tenderin şərtlərinə görə iddiaçılar layihələri yerinə yetirmək üçün lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Təkliflərin qiymətləndirilməsində ən aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, texniki imkanlar və kadr potensialı kimi meyarlara üstünlük veriləcəkdir. Yenidənqurma və tikinti işləri 2013-cü ilin sonuna qədər başa çatdırılması tələb olunur.

Tenderdə iştirak etmək istəyənlər təkliflərini yazılı formada Azərbaycan didlində təqdim etməli, müsabiqədə iştirak üçün hər lot üzrə 300 manat ödəməlidir. Təkliflər Tender Zəmanəti ilə birlikdə 28 mart 2013-ci il tarixədək təqdim olunmalıdır.

# Abunəçilərin sayı 4 % artmışdır

***2012-ci ildə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin xidmət göstərdiyi abunəçilərin sayı 53 min abunəçi və ya 4 % artmışdır.***

01 yanvar 2013-cü il tarixinə olan məlumata görə, ölkə üzrə 1136388 abunəçi su və kanalizasiya xidmətlərinin istifadəçisi kimi qeydiyyata alınmışdır. İstehlakçıların 96 %-ni əhali, 4 %-ni isə qeyri-əhali qrupu abunəçiləri təşkil edir. 2012-ci ildə abunəçi sayında artım nəzarət tədbirlərinin gücləndirilməsi, qeyri-qanuni qoşulmaların rəsmiləşdirilməsi, həmçinin yeni abunəçilərin qeydiyyata alınması hesabına baş vermişdir.

2013-cü il yanvarın 1-nə olan məlumata görə "Azərsu" ASC üzrə abunəçilərin 47,5 faizi sayğacla təmin olunmuşdur.



# İlk çərşənbə – su çərşənbəsi

***Novruzun müqəddəs çərşənbələrindən birincisi Su çərşənbəsidir. Buna el arasında "Əzəl çərşənbə", "Gözəl çərşənbə", "Gül çərşənbə", "Sular Novruzu" da deyilir. Deyilənə görə, Tanrı suyu ilk olaraq yaratdığı üçün ilk çərşənbə kimi su çərşənbəsi qeyd edilir. Bu çərşənbədə suyun dirilməsi özünü göstərir. Qədim inanclara görə, bu çərşənbə suya tapınma inancı ilə başlayır. "Təzə su", yəni səhər dan yeri sökülməmiş götürülən köpüklü ağ su min bir dərdin dərmanı sayılır.***

Su çərşənbəsində insanlar çaya gedər, axan suda əllərini, üzlərini yuyarlar. Bu inanca görə onların üzərilərində olan bütün pisliklər həmin suya tökülərək məhv olar və onlar da yeni ilə pak daxil olarlar. Su çərşənbəsində masa üzərinə su qoymaq, masada suyun aşması xeyirliyə yozulur. Əgər süfrənizdə su aşıb tökülərsə, həmin ilin sizin üçün bol bərəkət gətirəcəyi gözlənilir.

Su çərşənbəsi günü lal axan suyun üzərindən keçmək uğursuzluq əlaməti sayılır, həmçinin bu gün övladı olmayan bir qadının başından qırxaçar qabla su töksən, onun övladı dünyaya gələr. Su çərşənbəsində hamının həyətində tonqal qalanır və bayram əhval-ruhiyyəsinin yaxınlaşdığı nəzərə çatdırılır. Həmin gün insanların bir-birinin üzərinə su atması da uğura işarədir.

Su çərşənbəsi ilə bağlı müxtəlif ayin və etiqadlar da var. Həmin gün su kənarında, bulaq başında dayanan insanlar ürəklərindən keçənləri suya söyləyir, niyyətlərinin hasil olmasını arzulayırdılar. Suyun qüdrətinə inananlar adətən, nikbin təbiətli olurlar. Söyləyirlər ki, ən pis qorxulu yuxunu da suya danışsan xeyir taparsan. Ta qədimlərdən nənələrimiz suya baxaraq dodaqaltı pıçıldayarmışlar: "Suyun bəndinə qurban, belə hər fəndinə qurban..." Su gələn yerlərə birlik gələr, barbəhər göyərər. Susuz çöllərin sinəsi cadar-cadar olar. Su olan yerdə həyat var, hətta ən gözəl qıza da tərif deyəndə onu su pərisinə, su sonasına bənzədərmişlər.

Su fallarına görə Su çərşənbəsi insanlar bulaqdan evə su gətirərlər. Buna el arasında "lal su" deyirlər. Çünki heç kəs danışmamalıdır. İnanca görə, bu suyun özgə hikməti var. Onu bir neçə piyaləyə töküb saxlayarlar. Qonum-qonşudakı qızlar bir yerə yığışaraq hərəsi öz bəxtinin üzüyünü saçına sürtüb suya atar. Üzük piyalənin divarına toxunaraq neçə dəfə cingildəsə, deməli, onun sahibi səsin sayına bərabər aydan, ildən sonra gəlin köçəcək. Su fallarının hər bir bölgədə özünəməxsusluğu var. Belə ki, bəzi yerlərdə iki iynənin başına pambıq dolayır, hərəsini piyalənin bir tərəfindən suya salırlar. İynələr piyalədə bir-birinə toxunsa, deməli, sevgililər bir-birinə tezliklə qovuşacaqlar.

Hətta qədim təbabətimizdə də su ilə bağlı maraqlı məsləhətlər var. Su çərşənbəsində övladı olmayan qadının başından qırx cam su töksən, niyyətin hasil olar. Qorxan adamın Su çərşənbəsində başından su atsan, qorxusu keçər. Qədimdən üzü bəri səksənən, qorxan adama adətən, su içirdərlər. Bayılan insanın üzünə su çiləsən özünə gələr.

